# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı və qəsəbələrarası sərnişin daşımalarını yerinə yetirən daşıyıcılara istifadə olunan dizel yanacağına görə subsidiya verilməsinin müvəqqəti Qaydası”nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, dizel yanacağının qiymət artımının sərnişindaşıma tariflərinə və sərnişindaşıma ilə məşğul olan daşıyıcılara təsirinin minimallaşdırılması, ictimai nəqliyyatda tarif dəyişikliyinin aparılmaması və sərnişindaşımada nağdsız ödənişlərin stimullaşdırılması üçün ölkə daxilində (şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı və qəsəbələrarası) sərnişindaşıma xidmətləri göstərən daşıyıcılara subsidiya verilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı və qəsəbələrarası sərnişin daşımalarını yerinə yetirən daşıyıcılara istifadə olunan dizel yanacağına görə subsidiya verilməsinin müvəqqəti Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

2.1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla, avtomobil nəqliyyatı ilə müntəzəm şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı və qəsəbələrarası sərnişin daşımalarını yerinə yetirən daşıyıcılara

subsidiya verilməsi üçün növbəti illər üzrə tələb olunacaq vəsait barədə təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

2.2. avtomobil nəqliyyatı ilə müntəzəm şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı və qəsəbələrarası sərnişin daşımalarını yerinə yetirən daşıyıcılara bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş qaydaya uyğun subsidiya ödənilməsini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə birlikdə təmin etsin;

2.3. avtomobil nəqliyyatı ilə müntəzəm şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı və qəsəbələrarası sərnişin daşımalarını yerinə yetirən daşıyıcılara verilən subsidiya barədə illik icmal hesabatı növbəti ilin 1 fevral tarixinədək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

2.4. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Bakı Nəqliyyat Agentliyi ilə birlikdə müntəzəm şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı və qəsəbələrarası sərnişin daşımalarını yerinə yetirən subyektlərdə gediş haqqının nağdsız ödənilməsini təmin edən ödəniş sisteminə (ödəniş alətlərinə) keçidin sürətləndirilməsi ilə bağlı təkliflərini 2022-ci ilin 15 fevral tarixinədək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Qərarla müəyyən edilmiş müddəalar əsasında Naxçıvan Muxtar Respublikasında avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşımalarını yerinə yetirən daşıyıcılara istifadə olunan dizel yanacağına görə subsidiya verilməsi üçün tədbirlər görsün.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 1 dekabr 2021-ci il

№ 379

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2021-ci il 1 dekabr
tarixli 379 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

## Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı və qəsəbələrarası sərnişin daşımalarını yerinə yetirən daşıyıcılara istifadə olunan dizel yanacağına görə subsidiya verilməsinin müvəqqəti

## QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 10.1.1-ci maddəsinə uyğun olaraq, "Ölkə daxilində neft məhsullarının tariflərinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2021-ci il 4 yanvar tarixli 1 nömrəli Qərarı ilə dizel yanacağının qiymətində baş vermiş artıma görə tarif dəyişikliyinin sərnişindaşıma tariflərinə və sərnişin-daşıma ilə məşğul olan daşıyıcılara təsirinin neytrallaşdırılması, xüsusilə sərnişindaşımada nağdsız ödənişlərin stimullaşdırılması, sərnişindaşıma fəaliyyəti ilə məşğul olan daşıyıcıların istifadə etdikləri dizel yanacağına görə müvəqqəti subsidiya (subsidiya) verilməsi məqsədilə hazırlanmışdır.

1.2. Bu Qayda dizel yanacağı ilə çalışan avtomobil nəqliyyatı ilə dövlət tərəfindən tənzimlənən tariflərə uyğun müntəzəm şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı və qəsəbələrarası sərnişindaşıma fəaliyyətini həyata keçirən daşıyıcılara şamil edilir.

1.3. Bu Qayda minik avtomobilləri ilə sərnişindaşıma, beynəl-xalq sərnişin daşımaları və qeyri-müntəzəm sərnişin daşımaları ilə məşğul olan daşıyıcılara şamil edilmir.

1.4. Bu Qaydanın məqsədi üçün daşıyıcı dedikdə, daşınma müqaviləsi əsasında dövlət tərəfindən tənzimlənən tariflərlə müntəzəm şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı (qəsəbələrarası) sərnişin daşımalarını yerinə yetirən, mülkiyyət, icarə və ya istifadə hüququ ilə avtomobil nəqliyyatı

vasitələrinə malik olan hüquqi şəxs və ya fərdi sahibkar, subsidiya dedikdə isə, dövlət büdcəsinin vəsaiti hesabına daşıyıcılara əvəzsiz verilən maliyyə vəsaiti nəzərdə tutulur.

1.5. Bu Qaydada istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktları ilə müəyyən olunmuş mənaları ifadə edir.

## 2. Subsidiyanın məbləği

2.1. Subsidiyanın məbləği təqvim ayı ərzində dizel yanacağına görə (artan yekun nəzərə alınmaqla) nağdsız qaydada ödənilmiş məbləğin 25 faizi həcmində, lakin aşağıdakı məbləğlərdən çox olmamaqla hesablanır:

2.1.1.müntəzəm şəhərdaxili (rayondaxili) sərnişindaşıma xidmətindən daxil olan vəsaitin 6,7 faizi məbləğində;

2.1.2.müntəzəm şəhərlərarası (rayonlararası) sərnişindaşıma xidmətindən daxil olan vəsaitin 8,3 faizi məbləğində;

2.1.3. müntəzəm şəhərətrafı və qəsəbələrarası sərnişindaşıma xidmətindən daxil olan vəsaitin 7,5 faizi məbləğində.

## 3. Subsidiyanın verilməsinin müddəti

3.1. Subsidiya "Ölkə daxilində neft məhsullarının tariflərinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2021-ci il 4 yanvar tarixli Qərarı qüvvəyə mindiyi tarixdən "İctimai nəqliyyatda sərnişindaşıma xidmətləri üzrə tariflərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2018-ci il 30 iyul tarixli 7 nömrəli Qərarı ilə təsdiq edilmiş tariflərin qüvvədə olduğu müddəti əhatə edən dövr üzrə verilir.

## 4. Subsidiyanın verilməsinin təşkili, şərtləri və hesablanması

4.1. Subsidiyanın alınması üçün daşıyıcıların müraciətinə 20 (iyirmi) gün müddətində baxılır.

4.2. Bu Qaydanın 4.7-ci bəndi ilə müəyyən edilən şərtlərə cavab verən daşıyıcılar tərəfindən hər ay bitdikdən sonra növbəti ayın 15-dək aşağıdakı sənədlər vergi orqanına təqdim edilir:

4.2.1. bu Qaydanın 1 nömrəli əlavəsində göstərilən formada hesabat;

4.2.2. subsidiya məbləğinin köçürüləcəyi bank hesabı barədə məlumatlar;

4.2.3.avtobusların yanacaq sərfi üzrə texniki göstəricilər (texniki pasportlar);

4.2.4. səlahiyyətli orqanlar (Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidməti, Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımaya münasibətdə Bakı Nəqliyyat Agentliyi, Sumqayıt Şəhər icra hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi və Gəncə Şəhər İcra Hakimiyyəti yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi) tərəfindən verilmiş marşrut pasportunun elektron formada surəti;

4.2.5. bank əməliyyatlarına dair məlumat - bank çıxarışları (elektron formada).

4.3. Subsidiya alınması üçün daşıyıcıların müraciəti müvafiq ayın 15-dən sonra təqdim edildikdə, həmin müraciətlər növbəti ayda nəzərə alınır.

4.4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (bundan sonra - Dövlət Vergi Xidməti) bu Qaydanın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş formaya uyğun daşıyıcılar tərəfindən təqdim olunmuş elektron məlumatlar əsasında müraciətlərə baxır və ödəniləcək subsidiyanın məbləğini müəyyən edir.

4.5. Dövlət Vergi Xidməti daşıyıcılar tərəfindən təqdim edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar etdikdə, həmin çatışmazlıqların 5 (beş) iş günündən gec olmayaraq aradan qaldırılması üçün daşıyıcıya 3 (üç) iş günü müddətində məlumat verir. Daşıyıcılar tərəfindən çatışmazlıqlar aradan qaldırıldıqdan sonra ödəniləcək subsidiyanın məbləğini müəyyən edir.

4.6. Dövlət Vergi Xidməti daşıyıcı tərəfindən təqdim edilmiş sənədlərə baxılmasının nəticəsi üzrə daşıyıcıya subsidiya verilməsindən imtinaya əsaslar (təhrif olunmuş məlumatlar, bu Qaydanın tələbləri ilə uyğunsuzluqlar) olduqda, subsidiyanın verilməsindən imtina haqqında 3 (üç) iş günü müddətində inzibati akt qəbul edir və bu barədə məlumatı 2 (iki) iş günü müddətində daşıyıcıya təqdim edir.

4.7. Subsidiya almaq istəyən daşıyıcılar aşağıdakı şərtlərə cavab verməlidirlər:

4.7.1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 iyul tarixli 265 nömrəli Qərarı ilə təsdiq edilmiş "Riskli vergi ödəyicisinin, o cümlədən riskli əməliyyatların Meyarları"na düşməməli;

4.7.2. subsidiya verilməsi nəzərdə tutulan dizel yanacağının alışını nağdsız qaydada həyata keçirməli;

4.7.3. əməkhaqlarının ödənişini tam həcmdə nağdsız qaydada həyata keçirməli;

4.7.4. nağdsız ödəniş sistemləri (ödəniş alətləri) ilə təchiz edilməmiş avtobuslarla sərnişindaşıma xidmətini həyata keçirən daşıyıcılar üzrə aylıq əsasda nağd qaydada qəbul edilən vəsaitlərin 60 faizi həcmində məbləği bank hesabına mədaxil etməli.

4.8. Subsidiya almaq hüququ başqa şəxslərə ötürülə bilməz.

## 5. Subsidiyanın ödənilməsi qaydası

5.1. Dövlət Vergi Xidməti hər ayın 25-dək icmallaşdırılmış məlumatlar əsasında subsidiyanın ödənilməsi ilə bağlı bu Qaydanın 2 nömrəli əlavəsinə uyğun ödəniş sifarişini Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyinə təqdim edir.

5.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi 2 (iki) iş günü müddətində bu Qaydanın 5.1-ci bəndinə uyğun olaraq təqdim edilmiş ödəniş sifarişi əsasında subsidiya məbləğlərinin daşıyıçıların bank hesablarına köçürülməsini həyata keçirir.

“Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı və qəsəbələrarası sərnişin daşımalarını yerinə yetirən daşıyıcılara istifadə olunan dizel yanacağına görə subsidiyanın verilməsinin müvəqqəti Qaydası”na
**1 nömrəli əlavə**

## Müntəzəm şəhərlərarası (rayonlararası), şəhərətrafı (qəsəbələrarası) və şəhərdaxili (rayondaxili) sərnişindaşıma fəaliyyətini həyata keçirən şəxslər tərəfindən daşımada istifadə edilmiş yanacağa görə subsidiya verilməsi ilə bağlı 20___ ___ ilin ___________ ayı üzrə
## HESABAT FORMASI

| Məlumat formasını təqdim edən daşıyıcının | |
|---|---|
| VÖEN-i | |
| Adı | |
| Subsidiya məbləğinin köçürüləcəyi bank hesabının rekvizitləri | |

| Hesabat ayı ərzində həyata keçirilən daşıma fəaliyyəti ilə bağlı ümumi məlumatlar | | | | |
|---|---|---|---|---|
| Hesabat dövründə sərnişin daşınmasından əldə edilən ümumi gəlir (manat) | cəmi | | o cümlədən nağd qaydada | |
| | | | | |
| Dizel yanacağı (litr) | ayın əvvəlinə qalıq | ay ərzində alınmış | ay ərzində sərf olunmuş | ayın sonuna qalıq |
| | | | | |
| Hesabat ayı ərzində hesablanmış və ödənilmiş əməkhaqqı məbləğləri (manat) | hesablanmış əməkhaqqı | | ödənilmiş əməkhaqqı | |
| | | | | |
| Nağd qaydada fəaliyyət göstərən şəxslər üçün satışdan daxilolmaların bank hesabına mədaxil edilən məbləği (manat) | | | | |
| Hesabat ayı ərzində faktiki olaraq xidmət göstərilmiş sərnişinlərin ümumi sayı (nəfər) | | | | |

| Daşıyıcı tərəfindən təqdim edilən məlumatlar | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Sıra №-si | Nəqliyyat vasitəsinin dövlət qeydiyyat nömrəsi | Alınmış “Fərqlənmə nişanı”nın seriyası və nömrəsi | Alınmış “Fərqlənmə nişanı”nın tarixi | Nəqliyyat vasitəsində oturacaq yerlərinin sayı | Hesabat dövrü ərzində faktiki xidmət göstərilmiş sərnişinlərin sayı | Marşrut barədə məlumatlar | | | Hesabat dövrü ərzində faktiki olaraq qət edilmiş məsafə (km) | Reys sayı | Daşınmanın növü<br>1. şəhərdaxili (rayondaxili)<br>2. şəhərlərarası (rayonlararası)<br>3. şəhərətrafı və qəsəbələrarası |
| | | | | | | nömrəsi | daşınmanın başlanğıc nöqtəsi | daşınmanın son nöqtəsi | | | |
| 1. | | | | | | | | | | | |
| 2. | | | | | | | | | | | |

**Qeyd.** Qaydada subsidiyanın verilməsi üçün müəyyən olunmuş sənədlər hesabata əlavə edilir.

“Avtomobil nəqliyyatı ilə müntəzəm şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı və qəsəbələrarası sərnişin daşımalarını yerinə yetirən daşıyıcılara istifadə olunan dizel yanacağına görə subsidiyanın verilməsinin müvəqqəti Qaydası”na

**2 nömrəli əlavə**

**20___ ___ ilin _______________ ayı üzrə daşıyıcılara ödənilməli olan subsidiya məbləğinə dair**

## ÖDƏNİŞ SİFARİŞİ

| Sıra №-si | Avtobus ilə müntəzəm şəhərlərarası (rayonlararası) və şəhərdaxili (rayondaxili), o cümlədən şəhərətrafı və qəsəbələrarası sərnişin daşımalarını yerinə yetirən daşıyıcı haqqında məlumat | | | Ödəniləcək subsidiyanın məbləği |
|---|---|---|---|---|
| | hüquqi şəxsin tam adı və ya fiziki şəxsin soyadı, adı və atasının adı | VÖEN-i | Bank rekvizitləri | |
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |
| | | | | |
| **CƏMİ** | | | | |

Dövlət Vergi Xidmətinin vəzifəli şəxsi

M.Y. ________ (imza) ______________________________ (vəzifəsi, soyadı, adı, atasının adı)